# «Qəbələ gənc könüllülər klubu» yaradılmışdır

«Azərbaycan Gəncliyi 2011—2015-c illərdə» Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlər planına uyğun olaraq Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və «Bizim Nəsil» Gənclərin Regional İnki-



şaf Assosiasiyası İctimai Birliyi tərəfindən «Regionlarda "Gənc könüllülər klubu»nun yaradılması, gənclərin könüllü fəaliyyətə həvəsləndirilməsi» adlı layihə çərçivəsində «Qəbələ gənc könüllülər klubu» yaradılmışdır.

Klubun təsis edilmə mərasimini giriş sözü ilə açan rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov layihənin məramı barədə məlumat verərək bildirdi ki, layihənin məqsədi rayon gəncləri arasında könüllülüyün təşviq edilməsi və gücləndirilməsi, könüllülük ideyasının gənclər arasında təbliğ olunması, könüllülərin formalaşdırılması, icma-könüllü əməkdaşlığının qurulması, könüllülərin fəaliyyətinin təşkilatların fəaliyyətinə cəlb edilməsidir.

"Bizim Nəsil" Gənclərin Regional İnkişaf Assosiasiyası İctimai Birliyinin sədri Nurəddin Mehdiyev bildirdi ki, layihənin əsas nəticələrindən biri kimi regionlarda "Gənc Könüllülər Klubu"nun yaradılmasını xüsusilə qeyd etmək lazımdır. Bu günə qədər Azərbaycanın bəzi regionlarında belə klubların yaradılmasına təşəbbüs göstərilsə də bu iş davamlı olmamaışdır. Bu baxımdan həyata keçiriləcək layihə çərçivəsində yaradılacaq «klublar» davamlı fəaliyyət göstərəcək və regionlarda müxtəlif könüllülük təşəbbüslərində iştirak edəcək. Layihə çərçivəsində hər bir region «Gənc Könüllülər Klubu»nun facebook səhifəsi açılacaq. Bu səhifə vasitəsilə regionlarda könüllülüklə məşğul olmaq istəyən gənclər şəbəkələşəcək, bir biri ilə daha sıx əlaqədə işləyəcəklər. Regionlarda «Gənc Könüllülər Klubları»nda təmsil olunan gənclər sosial təşəbbüslərlə çıxış edəcəklər və regionda layihələrin icrasında iştirak edəcəklər.

Qəbələ Regional Gənclərin Resurs Mərkəzi İctimai Birliyi adından çıxış edən Qalib Nəbiyev könüllülük hərəkatının prinsiplərindən danışaraq bu layihə çərçivəsində gənclərin təşkilatlanmasının əhəmiyyəti barədə ətraflı məlumat verdi və Azərbaycanda ilk nümunələrdən olan «Könüllü fəaliyyət üçün bələdçi» adlı kitabçanın nəşr olunmasını yüksək qiymətləndirdi. Natiq bildiri ki, ölkəmizdə könüllü fəaliyyət haqqında, onun nəzəri və praktik əsaslarına dair əyani vəsaitlər, araşdırmalar elə də çox deyil. Bu tələbatı nəzərə alaraq, "Bizim Nəsil" Gənclər Təşkilatı Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin maliyyə dəstəyi ilə həyata keçirdiyi layihə çərçivəsində kitabçanı nəşr etməsi mühüm əhəmiyyət daşıyır.

Layihə çərçivəsində iştirakçılara "Könüllü fəaliyyət üçün bələdçi" kitabçası, müxtəlif təbliğat xarekterli materiallar da paylanmışdır.

**Mübariz AĞAYEV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Zona yarışı

«Azərbaycan gəncliyi 2011—2015-ci illərdə» Dövlət Proqramının müvafiq bəndlərinin icrasının təmin edilməsi




məqsədilə Gənclər və İdman Nazirliyinin dəstəyi və «Gənclərin İntellektual İnkişafı Mərkəzi» İctimai Birliyinin təşkilatçılığı ilə 9 aprel 2013-cü il tarixdə Qəbələ Rayon Turizm və Otelçilik üzrə peşə tədris mərkəzində «Xəmsə» Milli İntellektual Oyunu üzrə gənclər arasında VI Azərbaycan çempionatının zona seçim mərhələsi keçirilmişdir.

Tədbirin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək iştirakçıları salamlamış və cənab Prezident İlham Əliyevin gənc nəslə xüsusi diqqət yetirdiyindən, onlara hər bir sahədə göstərilən qayğıdan və respublikada dövlət gənclər siyasətinin uğurlu inkişafından danışmış, tədbirin məqsəd və vəzifələri haqqında məlumat vermişdir.

«Xəmsə» Milli İntellektual Oyununun keçirilməsində əsas məqsədin gənclərin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, Azərbaycanın zəngin milli mədəniyyətinin və tarixinin təbliği eləcə də gənclərin asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarət olduğu bildirilmişdir.

Zona turunda yaşı 18-dən 29-dək olan Oğuz, Şəki, Qax, Zaqatala, Balakən və Qəbələ rayon komandaları öz bilik bacarıqlarını və intellektual səviyyələrini sınamışlar. Yarışın yekununda Zaqatala rayon komandası I yer, Oğuz rayon komandası II yer və Qəbələ rayon komandası III yerə çıxmışdır. Hər üç komanda Bakı şəhərində keçiriləcək final mərhələsinə vəsiqə qazanmışlar.

**Elçin OSMANOV,**
**GİI-nin aparıcı məsləhətçisi.**

# «Sənin səsin–sənin seçimin» adlı layihə çərçivəsində seminar

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Gəncliyi 2011—2015-ci illərdə» Dövlət Proqramından irəli gələn vəzifələrin icrası məqsədilə Gənclər və İdman Nazirliyinin dəstəyi və «Bizim Nəsil» Gənclərin Regional İnkişaf Assosiasiyası İctimai Birliyinin təşkilatçılığı ilə «Sənin səsin—sənin seçimin» adlı layihə çərçivəsində 8 aprel 2013-cü il tarixdə Qəbələ Turizm və Otelçilik üzrə Peşə tədris mərkəzində ilk dəfə səs verən gənclərlə maarifləndirici seminar keçirilmişdir. Tədbirdə rayon icra hakimiyyətinin nümayəndəsi Ramil Qəribov, 114 saylı Dairə Seçki Komissiyasının əməkdaşı Rəşad Abdullayev və 100-dək gənc iştirak etmişdir.

Tədbirdə seçki maariflənməsi ilə bağlı hazırlanmış videoçarx nümayiş etdirildi. Seminarı giriş sözü ilə açan Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov Azərbaycanın 30 rayonunu əhatə edəcək layihənin keçirilməsində məqsədin ilk dəfə səs verən gənclərin seçki proseduru ilə bağlı



maarifləndirilməsi, informasiya çatışmazlığının aradan qaldırılması, gənclərin seçkilərdə aktiv iştirakına töhfə verməkdən ibarət olduğunu bildirdi.

Daha sonra layihə rəhbəri, Gənclər və İdman Nazirliyi yanında Gənclərlə İş üzrə İctimai Şuranın sədri, «Bizim Nəsil» Gənclərin Regional İnkişaf Assosiasiyası İctimai Birliyinin rəhbəri Nurəddin Mehdiyev bildirdi ki, bu il ölkəmizdə mühüm siyasi kompaniya-Azərbaycan Respublikası Prezidentinin seçkiləridir. Azərbaycan Respublikasının qanunvericiliyi müasir dövlətlərin əksəriyyətində olduğu kimi, müəyyən olunmuş qaydada fəaliyyət qabiliyyətindən məhrum olmuş şəxslər istisna olmaqla, 18 yaşına çatmış bütün vətəndaşların aktiv seçki hüququnun olduğunu nəzərdə tutur. Lakin onların bir çoxu seçki prosesində aktiv seçki hüququndan istifadə etmirlər, passivlik və laqeydlik nümayiş etdirirlər. Bəzi gənclər ən adi seçki hüquqları haqqında, səsvermə prosedurları, səsvermə qaydaları haqqında məlumatsızdırlar. Bu vəziyyət daha çox yaşı 18-ə çatmış və ilk dəfə səs verən gənclər arasında müşahidə olunur. Bu baxımdan layihənin həyata keçirilməsi aktuallıq kəsb edir. Bu layihə seçkilərin praktiki-qanunvericilik aspektlərinin daha dərindən dərkinə, son nəticədə isə gənclərin maarifləndirilməsinə və eyni zamanda seçkilərdə daha fəal iştirakına imkan yaradacaq.

Layihənin təlimçisi, QHT təlim və resurs mərkəzinin icraçı direktoru Qalib Nəbiyev məruzəsi zamanı seçkilərin məqsədi və rolu, seçki sistemləri, Azərbaycanda seçkilərin keçirilməsi prinsipləri, seçicilərin vəzifələri, səsvermə günü «exit poll»un keçirilməsi barədə geniş məlumat verərək gənc seçiciləri aktiv olmağa dəvət etdi.

Tədbirin sonunda ilk dəfə səs verən gənclərə rayon polis şöbəsinin əməkdaşı tərəfindən şəxsiyyət vəsiqələri təqdim olundu, həmçinin layihə iştirakçıları olan ilk dəfə səs verən gənclərə «Bizim Nəsil» Gənclərin Regional İnkişaf Assosiasiyası İctimai Birliyi tərəfindən hazırlanmış «Seçki təlimat jurnalı», «İlk dəfə səs verən gənclər üçün yaddaş kitabçası», təsvirli köynəklər, bukletlər, cib təqvimləri paylandı.

**Məhəmmədəli SƏFƏRÇİNOV,**
**gənclər və idman idarəsinin baş məsləhətçisi.**